# XİDMƏT RƏİSİ (TƏBİİ QAZIN QƏBULU VƏ SATIŞI XİDMƏTİ) VƏZİFƏSİ ÜZRƏ MÖVZULAR

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 12 may tarixli 80 nömrəli qərarı ilə təsdiq edilmiş "Qazdan istifadə qaydaları"
2. "Qaz təsərrüfatında texniki istismar qaydaları"
3. "Qaz təsərrüfatında texniki təhlükəsizlik qaydaları"
4. İstehlakçılarla üzləşmə aktlarının, hesab-fakturaların tərtib edilməsi qaydaları
5. Qaz sayğaclarının markasını, həcmini
6. Əhali və qeyri-əhali abonentləri ilə qaz təchizatı barədə müqavilələrin bağlanması qaydaları

**1."Qazdan istifadə Qaydaları" hansı qanuna uyğun olaraq hazırlanmışdır?**
A)"Qaz təchizatı haqqında" Azərbaycan Respublikasının Qanunu
B)"Qazdan istifadə haqqında" Azərbaycan Respublikasının Qanunu
C)"Enerji təchizatı haqqında" Azərbaycan Respublikasının Qanunu
D)"Qaz təsərrüfatı haqqında" Azərbaycan Respublikasının Qanunu
E)"Qaz haqqında" Azərbaycan Respublikasının Qanunu

**2."Qazdan istifadə Qaydaları" hansı məsələləri tənzimləyir? Tam və doğru cavabı müəyyən edin.**
1.Qaz paylayıcısı ilə istehlakçı arasında qaz təchizatı üzrə münasibətlərini
2.Şəbəkəyə qoşulma və şəbəkədən ayırma şərtlərini
3.Qazın keyfiyyəti (təzyiq və təchizatın etibarlılığı)
4.Qazın qiymətinin müəyyən edilməsi şərtlərini
5.Qazın dəyərinin ödəmə şərtlərini
A) 1, 2, 3, 4, 5 B) 1, 2, 3, 5 C) 1, 2, 3, 4 D) 2, 3, 4, 5 E) 1, 3, 4, 5

**3.Qazdan istifadə Qaydaları"na əsasən qaz paylayıcısı ilə istehlakçı arasında qaz təchizatı üzrə münasibətləri hansı sənəd əsasında müəyyənləşdirilir?**
A) "Enerji təchizatı haqqında" Azərbaycan Respublikasının Qanunu
B) Qazın istifadəsinə dair ikitərəfli akt
C) Qazın alqı-satqı müqaviləsi
D) Qarşılıqı öhdəliklərə dair müqavilə
E) Qazın alış –satış qiymətləri müqaviləsi

**4.Qaz paylayıcı kim ola bilər?**
A)Fiziki şəxslər
B) Fiziki və hüquqi şəxslər
C) Kommersiya təşkilatları
D) Hüquqi şəxslər
E) Əcənbilər və vətəndaşlığı olmayanlar

**5. "Qazdan istifadə Qaydaları"na əsasən kim istehlakçılara qazpaylayıcı şəbəkə vasitəsilə qazın paylanılmasını, satılmasını və bu fəaliyyətlərlə əlaqədar xidmətləri həyata keçirir?**
A) İstehlakçı
B) İstehsalçı
C) İstifadəçilər
D) Qaz nəzarətçisi
E) Qaz paylayıcısı

**6."Qazdan istifadə Qaydaları"na əsasən kim alqı-satqı müqaviləsi əsasında qazı satın alan və qazdan yanacaq və ya xammal kimi istifadə edən hüquqi və ya fiziki şəxsdir?**
A) İstehlakçı
B) İstehsalçı
C) İstifadəçilər
D) Qaz nəzarətçisi
E) Qaz paylayıcısı

NÜMUNƏ

**7.Əhalinin məişət ehtiyacları üçün qazın yanacaq kimi istehlakı prosesində istifadə olunan, dövlət standartlarının tələblərinə cavab verən və uyğunluq sertifikatı olan məişət qaz qurğusnun ümumi sərfiyyatı nə qədər olmalıdır?**

A)Saatda 10 kubmetrdən artıq
B)Saatda 10 kubmetrədək
C)Sutkada 100 kubmetrədək
D)Saatda 150 kubmetrədək
E)Aylıq 1000 kubmetrədək

**8.Qazın istehlakçılara paylanması üçün yaradılmış, təşkilati, texnoloji və texniki cəhətdən bir-biri ilə əlaqəli olan təsərrüfat (qoşulma nöqtəsində boru kəmərləri və xətləri, təhlükəsizlik və nəzarət-ölçü sistemləri, qaz avadanlığı) necə adlanır?**

A)Qaz stansiyası
B) Qaz anbarı
C) Qazpaylayıcı şəbəkə
D) Qazpaylayıcı stansiyası
E) Qaz nəzarəti stansiyası

NÜMUNƏ